# Heydər Əliyev irsini öyrənirik

Azərbaycan tarixində ən yüksək iki adın "Ulu öndər" və "Azərbaycan xalqının ümummilli lideri" titullarının rəsmi daşıyıcısı məhz Heydər Əliyev olmuşdur.



10 may 1923-cü ildə Naxçıvanda anadan olmuş Heydər Əliyev 1939-cu ildə Naxçıvan Pedoqoji texnikomunu bitirib, Azərbaycan Sənaye İnstitutuna daxil olmuşdur və 1941-ci ildən Naxşıvan MSSR Xalq Daxili İşlər Komissarlığında əmək fəaliyyətinə başlamışdır. 1944-cü ildə Heydər Əliyev artıq Dövlət Təhlükəsizlik Orqanlarında işə göndərilib. 1957-ci ildə Azərbaycan Dövlət Universitetinin tarix fakultəsini bitirib. 1964-cü ildən Dövlət Təhlükəsizlik Komitəsinin sədr müavini, birinci müavini və 1967-ci ildən isə sədri işləmişdir. Həmin illərdə Leninqradda xüsusi Ali təhsil almışdır. Qeyd etmək lazımdır ki, Dövlət Təhlükəsizlik Komitəsinin sədri vəzifəsində işləmiş və bu vəzifədə General rütbəsinə yüksəlmiş ilk azərbaycanlı məhz Heydər Əliyev olmuşdur.

14 iyul 1969-cu ildən 3 dekabr 1982-ci ilə qədər Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsində işləmiş Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi müddət ərzində respublikamızın hərtərəfli inkişafına nail olmuşdur. Məhz Heydər Əliyevin təşəbbüsü ilə həyata keçirilən islahatların sayəsində Azərbaycan aqrar-sənaye respublikasından sənaye-aqrar respublikasına çevrildi. Respublikada aparılan geniş miqyaslı quruculuq işləri nəticəsində Azərbaycanda bir neçə il ərzində yeni yaşayış massivləri, binalar, məktəblər, sənaye müəssisələri tikildi, yollar salındı. Azərbaycan gənclərinin elmin və təhsilin dərinliklərinə yiyələnməsi, ölkənin sabahı üçün peşəkar kadr olması üçün Heydər Əliyevin gərgin səyi nəticəsində on minlərlə azərbaycanlının keçmiş ittifaqın ən nüfuzlu ali məktəblərində təhsil almaları üçün şərait yaradıldı.

Heydər Əliyevin 14 illik rəhbərliyi ərzində respublikada həyatın elə bir sahəsi qalmadı ki, orada tərəqqi, inkişaf müşahidə olunmasın. Ölkənin iqtisadiyyatı, xalqın rifah halı, elm və incəsənət, səhiyyə sahələri inkişaf edərək Azərbaycanı keçmiş müttəfiq respublikaları sırasında ən ön yerlərdən birini tutmasına gətirib çıxardı. Heydər Əliyev bu fəaliyyəti ilə tək həmin dövrün Azərbaycanı və vətəndaşları üçün yox, həm də Müstəqil Azərbaycanın möhkəm təməlini, sonrakı nəsillərin xoşbəxt və firavan həyatının təməlini qoymuşdur.

1982-1987-ci illərdə Hedər Əliyev SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsinə irəli çəkilmiş və Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü olmuşdur. 1987-ci ilin oktyabrında SSRİ Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz edərək bütün vəzifələrdən imtina etmişdir. 1990-cı ilin 20 yanvarında Heydər Əliyev Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələrək bəyanat verib və Bakıda sovet qoşunlarının dinc sakinlərə qarşı törətdiyi cinayəti pisləyərək müqəssirlərin cəzalanmasını tələb etmişdir.

1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev əvvəlcə Bakıda, sonra Naxçıvanda yaşamış və həmin il Azərbaycanın Ali Sovetinə deputat seçilmişdir. Heydər Əliyev 1991-1993-cü illərdə Naxçıvan MR Ali Məclisinin Sədri vəzifəsində işləmişdir. 17 noyabr 1990-cı ildə Naxçıvan MSSR Ali Məclisində Heydər Əliyevin sədrliyi ilə keçən iclasda ilk dəfə olaraq Xalq Cumhuriyyətinin üçrəngli bayrağı qaldırılmışdır və Muxtar Respublikanın adından "Sovet Sosialist" sözləri çıxarılmışdır.

1991-ci il dekabrın 25-də Ali Sovetin qərarı ilə 31 dekabr "Dünya azərbaycanlılarının həmrəyliyi günü " elan olundu.

1992-ci ilin noyabrında Azərbaycanda siyasi böhranın kəskinləşdiyi çox çətin bir dövrdə Ulu Öndər Heydər Əliyev Yeni Azərbaycan üçün Yeni Azərbaycan Partiyasının yaranmasına nail oldu və Partiyanın sədri seçildi.

Azərbaycanın müasir tarixinin ən narahat,ən təlatümlü dövründə yaranan YAP-sı fəaliyyət göstərdiyi illər ərzində çox zəngin bir həyat yolu keçmişdir.Artıq 31-ci ildir ki, YAP özünü ölkənin siyasi taleyində həlledici rol oynamaq qüdrətinə malik olan vahid siyasi qüvvə kimi təsdiq etmişdir. Ümummilli Liderimiz Heydər Əliyevin banisi olduğu YAP-sı yarandığı gündən böyük ictimai dəyərlərin daşıyıcısıdır. YAP bütün gücünü xalqın inamını doğrultmağa yönəltmişdir. Məhz buna görə də xalqımız YAP-nın yaranmasına böyük inamla baxmış, siyasətini dəstəkləmişdir. Bu gün Azərbaycan Heydər Əliyev yolu ilə irəliləyir və inkişaf edir. Cəmiyyətin ən müxtəlif sosial təbəqələrini sıralarına birləşdirən YAP-nın ictimai-siyasi proseslərə təsir imkanları ildən-ilə genişlənir, beynəlxalq nüfuzu artır. Hazırda pariyanın sıralarında 700 min nəfərdən çox siyasi həmfikir cəmlənərək Heydər Əliyevin işıqlı ideyalarının və dövlət siyasətinin həyata keçirilməsində fədakarlıq göstərirlər.

1993-cü ilin iyununda Azərbaycanda siyasi böhranın pik həddə çatdığı və respublika müxtəlif bölgələrə parçalanmaq təhlükəsi ilə üzləşdiyi bir zamanda görkəmli elm adamları və ictimaiyyətin əksəriyyətinin xahişi ilə Heydər Əliyev Bakıya dəvət edildi. 15 iyunda Ali Sovetin Sədri seçilən Heydər Əliyev 24 iyul 1993-cü ildə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini icra etməyə başladı. 1993-cü ili 3 oktyabrında isə Ümumxalq səsverməsi nəticəsində demək olar ki, yekdilliklə Azərbaycan Respublikası Prezidenti seçildi.

Heydər Əliyevin Azərbaycanın rəhbərliyinə qayıtması tarixi zərurətin, sabitlik, qanunçuluq və ədalət intizarında olan milyonlarla insanın çağırışının gerçəkləşməsi idi.

1993-cü ildən sonrakı 10 ilə nəzər salsaq , bu illərin Azərbaycan xalqı və dövləti üçün həqiqətən böyük imtahan, sınaq epoxası olduğunu, ən əsası isə xalqımızın və dövlətimizin bu sınaqdan uğurla çıxdığını yəqin edə bilərik. Belə ki, artıq 1994-cü ilin mayın 12-də Ermənistan-Azərbaycan cəbhəsində ağır və üzücü müharibə dayandırıldı. Azərbaycan dövləti zəruri nəfəs dərmək, qüvvəsini toparlamaq və dövlətin sütunlarını möhkəmləndirmək imkanı qazandı. Atəşkəsin ilk müsbət nəticəsi isə özünü çox gözlətmədi. Sentyabrın 20-də Azərbaycanda təkcə neft sahəsinin deyil, bütövlükdə iqtisadi dirçəlişin təməlini qoyan ilk meqamüqavilə - "Əsrin Müqaviləsi" bağlandı. Heydər Əliyevin tarixi uzaqgörənliyinin və cəsarətinin nəticəsi olan saziş Azərbaycanın milli neft strategiyasının başlanğıcı olmaqla yanaşı , Xəzərin milli sektorlara bölgüsü ilə bağlı ölkəmizin prinsipial mövqeyini nümayiş etdirdi. 1996-cı ildə əhəmiyyətinə görə ikinci böyük enerji müqaviləsi "Şahdəniz" müqaviləsi imzalandı. 1996-cı ilin dekabrında artıq ATƏT-in Lissabon sammitində Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini zəruri sayan qətnamə qəbul edildi. 1997-ci ildə Azərbaycanda genişmiqyaslı iqtisadi inkişaf başlandı. Özəlləşdirmə və aqrar islahatlara start verildi. Kəndli torpağın sahibinə çevrildi, illərlə qapısı bağlı olan sənaye müəssisələrinə sərmayə işığı yandırıldı. 1998-ci ilin aprelində "Qərb kəməri" Bakı-Supsa işə düşdü. 1999-cu ilin noyabrında Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi barədə böyük saziş imzalandı. 2000-ci ilin iyun ayında Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin məqsədyönlü xarici siyasəti artıq öz bəhrəsini verdi - Azərbaycan Avropa Şurasına rəsmi dəvət aldı. 25 yanvar 2001-ci ildə Azərbaycan Avropa Şurasının tamhüquqlu üzvü qəbul edildi. 2002-ci ilin sentyabrında Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisinin təməlatma mərasimi keçirildi.

2003-cü il - Heydər Əliyevin Prezidentliyinin 10-cu ilində Azərbaycan dövlətçiliyini rəvan və perspektivi aydın görünən inkişaf magistralına çıxardı. Ölkənin gələcək idarəçiliyini siyasi varisinə - özü qədər inandığı gənc liderə, İlham Əliyevə təhvil verdi. Azərbaycan xalqı Ulu Öndərin tarixi seçiminə dəstək verdi . 2003-cü ilin 15 oktyabr seçkiləri nəticə etibarilə Heydər Əliyev siyasətini Azərbaycanın dövlətçilik fəlsəfəsi kimi birmənalı şəkildə təsdiqlədi.

2003-cü ilin 12 dekabrında Azərbaycan xalqı Heydər Əliyevi itirdi.

Bu gün əminliklə demək olar ki, ulu öndər, ümummilli lider Heydər Əliyevin ideya və arzuları yaşayır. Qarabağ zəfərindən sonra yaranmış yeni reallıqlar fonunda Azərbaycan Respublikasının Prezidenti,Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan parlaq gələcəyə doğru daha inamla irəliləyəcəkdir.

**Araz AĞAYEV,**
**Kiçik Pirəli kənd İƏD üzrə nümayəndə.**

# Fövqəladə Hallar Nazirliyinin və İsveç Mülki Müdafiə Agentliyinin birgə seminarı

Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin və İsveçin Mülki Müdafiə Agentliyinin (MSB) birgə təşkilatçılığı, İtaliyanın Beynəlxalq Ətraf Mühitin Monitorinqi Mərkəzinin (CİMA) və Qızıl Xaç Cəmiyyətinin birgə tərəfdaşlığı ilə keçirilən "Milli səviyyədə səmərəli erkən xəbərdarlıq sistemlərinin qurulması üçün qurumlararası birgə fəaliyyət və fövqəladə halların planlaşdırılması" adlı dörd günlük seminarın davamı olaraq, pilot ərazi kimi seçilmiş şimal-qərb regionuna səfər təşkil olunub. Səfərin məqsədi meşə yanğınlarına həssas ərazilər üçün erkən xəbərdarlıq sisteminin təmin edilməsi üçün mövcud risklərin təhlili və müvafiq monitorinqlərin aparılması, habelə yerli səviyyədə fəlakətlərin birgə və səmərəli idarəedilməsi imkanlarının qiymətləndirilməsi olub. Səfərə Fövqəladə Hallar, Ekologiya və Təbii Sərvətlər nazirliklərinin, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin, o cümlədən PPRD East3 proqramının mütəxəssisləri qatılıblar. Səfər çərçivəsində yerli səviyyədə mülki müdafiə tədbirlərinin birgə təşkili və planlaşdırılması, o cümlədən fəlakət risklərinin idarəedilməsi ilə bağlı məsələləri müzakirə etmək məqsədilə Fövqəladə Hallar Nazirliyinin Şimal-qərb Regional Mər-



kəzində və Qəbələ Rayon İcra Hakimiyyətində də görüşlər keçirilib. Həmçinin səfər çərçivəsində Qəbələ Rayon Mədəniyyət Mərkəzində Fövqəladə Hallar Nazirliyinin Şimal-qərb Regional Mərkəzinin və Qəbələ Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə yerli səviyyədə mülki müdafiə tədbirlərinə cavabdeh qurumların, o cümlədən yerli icmaların və vətəndaş cəmiyyəti təşkilatlarının birgə fəaliyyətinin və əlaqələndirmə mexanizmlərinin səmərəliliyinin qiymətləndirilməsinə həsr olunmuş seminar keçirilib.

# 20 yanvar həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması

1990-cıilin yanvarında SSRİ rəhbərliyinin açıq himayədarlığından hiddətlənən Azərbaycan xalqı öz etiraz səsini ucaltmaq üçün meydanlara axışdı. Xalqın olmuş 1990 -cı il 20 yanvar hadisələrinin səbəbləri və tarixi barədə geniş məlumat vermişdir. Həmçinin qətliamdan bir gün sonra, yanvarın 21-də xal-



haqq səsini ordu, güc vasitələrilə susdurmaq üçün SSRİ rəhbərliyi yanvar qırğınını törətdi. 20 Yanvar hadisəsi əks effekt verdi. Qanla tarixə yazılmış 20 Yanvar xalqımızın igidlik tarixinə yeni səhifə yazdı.

Heydər Əliyev Mərkəzində 2023-cü ilin ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə «Heydər Əliyev ili" çərçivəsində 1990-ilin 20 yanvar faciəsinə həsr olunmuş "20 Yanvar həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında ümummilli lider Heydər Əliyevin rolu" adlı dəyirmi masa keçirilib. Qəbələ rayon Heydər Əliyev Mərkəzinin baş fond mühafizi Kəmalə Qasımova tədbiri açaraq, Azərbaycan tarixinə Qanlı Yanvar kimi daxil qımızın böyük oğlu Heydər Əliyevin Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gedərək Bakıda kütləvi qırğın törətmiş SSRİ hakimiyyətini və Azərbaycanın yarıtmaz rəhbərliyini kəskin ittiham edən bəyanat verdiyini, vaxtında dərindən araşdırılmayan və adekvat qiymətini almayan faciəyə yalnız bir neçə il sonra ümummilli lider Heydər Əliyev ilə dövlət səviyyəsində siyasi-hüquqi qiymət verildiyini qeyd etmişdir. Digər çıxış edənlər 20 Yanvar hadisələrinin Azərbaycan tarixində əhəmiyyəti və sonraki hadisələrə təsirindən bəhs etmişlər. Sonda ulu öndərin 20 yanvar hadisələri barədə fikirləri səsləndirilmiş videoçarx izlənilmişdir.